“Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir”
*Cəlil Məmmədquluzadə*



# ÇIRAQ

30 iyun 2016-cı il № 6 (240) Qəzet 1992-ci ildən çıxır. Siyəzən rayonunun ictimai-siyasi qəzeti. Qiyməti müqavilə yolu ilə

## İYUN AYININ RƏSMİ XRONİKASI



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Bakı Sərgi Mərkəzində XXIII Beynəlxalq «Xəzər Neft və Qaz 2016» sərgi və konfransının, həmçinin VI Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisinin açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Avropa Parlamentində liberal-demokratlardan ibarət fraksiya-ALDE qrupunun vitse-sədri, «Şərq Tərəfdaşlığı» Proqramının Azərbaycan üzrə məruzəçisi Norika Nikolaini və Avropa Parlamentinin üzvü İveta Qriquleni qəbul edib.



İyunun 3-də Bakıda, Heydər Əliyev Mərkəzində Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılış mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultayın açılış mərasimində iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 3-də Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım ilə təkbətək görüşü olub. Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olundu. İyunun 3-də təkbətək görüşü başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım ilə geniş tərkibdə görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Almaniya Federativ Respublikasına işgüzar səfərə gəlib. İyunun 7-də Berlində Azərbaycan-Almaniya İqtisadi Forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılışında iştirak edib.

İyunun 7-də Berlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri Angela Merkelin görüşü olub, daha sonra mətbuat konfransı olub.

İyunun 8-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı diplomatik nümayəndəliklərinin və beynəlxalq təşkilatların rəhbərlərini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 9-da Rusiya Federasiyasının ədliyyə naziri Aleksandr Konovalovu qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Monitorinq Komitəsinin həmməruzəçiləri Sezar Florin Predani və Stefan Şennauı qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da «Formula One Management»in prezidenti Berni Ekklstounu qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti, Milli Assambleyanın deputatı Jan Fransua Manselin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



İyunun 17-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Nobel sülh mükafatı laureatı Məhəmməd Yunusu qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Jan Todu qəbul edib.

Azərbaycanın paytaxtı Bakı növbəti dəfə dünya əhəmiyyətli mötəbər idman yarışına ev sahibliyi edib. Bakıda dünyanın ən nüfuzlu idman yarışlarından biri-Formula-1 Avropa Qran-prisi keçirilib.



İyunun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Formula-1 Avropa Qran-prisinin açılış mərasiminə və final yarışına baxıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Rusiya Federasiyasına işgüzar səfərə gəlib. İşgüzar səfər çərçivəsində Sankt-Peterburq şəhərində Prezident Vladimir Putin ilə görüşüb.

İyunun 20-də Sankt-Peterburq şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin və Ermənistan Prezidenti Serj Sərkisyanın görüşü olub.

İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabunçu rayonu ərazisində əsaslı şəkildə yenidən qurulan Maştağa-Bilgəh yolunun, həmçinin Nardaran qəsəbəsində Abşeron və Nəsrulla Əsgərov küçələrinin açılışında iştirak edib.

İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabunçu rayonunun Nardaran qəsəbəsində sakinlərlə görüşüb.

İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabunçu rayonunun Nardaran qəsəbəsindəki «Rəhimə Xanım» məscid-ziyarətgah kompleksi ilə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 25-də Bakının Xətai rayonunda hərbçilər üçün inşa edilmiş yaşayış binasında yaradılan şəraitlə tanış olub.

İyunun 25-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrin Baş Qərargahının yeni inzibati binasının açılışında iştirak edib.

**AZƏRTAC**

## KÜÇƏLƏR ASFALTLANIR

Abadlıq yoldan başlayır, deyiblər. Son vaxtlar şəhərimizdə yolların abadlaşdırılması istiqamətində xeyli işlər görülmüşdür. Hazırda da bu işlər davam edir.



Yaxın günlərdə şəhərin H. Aslanov və M. P. Vaqif küçələrinə asfalt verilmişdir. Həmin küçələr uzun müddət idi ki, təmir olunmurdu. Bu vəziyyət piyadalar üçün, xüsusilə payız-qış aylarında çətinliklər yaradırdı.



Rayon İcra Hakimiyyətinin başçısı A. Hüseynov bu küçələrdə görülən işlərin vəziyyəti ilə tanış olmuş, müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

Sakinlər onların rahat gediş-gəlişi üçün şərait yaratdığına, problemlərin həllinə qısa müddətdə çalışdıqlarına görə rayon rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.

**«ÇIRAQ»**

## MÖVCUD VƏZİYYƏTLƏ KİFAYƏTLƏNMƏK YETƏRMİ?

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynovun keçirdiyi müşavirələrin birində müzakirə edilən məsələ ilə bağlı özündən razılığa qarşı bildirdiyi iradlardan sonra bu fikirləri ictimailəşdirməyə qərar verdim. İstərdim bu haqda müşavirədə iştirak etməyən, lakin üzərində məsuliyyət payı olan hər bir siyəzənli də məlumatlı olsun. Çox çətin və hər birimizdən məsuliyyət tələb edən çağırışdır. Əgər müvəffəq olarıqsa, sözsüz ki, qazancımız da daha çox olacaqır.

Nəticə özünü bir qayda olaraq müqayisədə büruzə verir. Baxmayaraq ki, seçilən bu üsulun özü də qüsurlardan hali deyil, amma reallıqdır. Hər halda, mütləq heç nə yoxdur. Və müqayisənin sənə verdiyi üstünlüyü bayraq etmək də obyektivliyə əsas vermir. Ən azı ona görə ki, çevrəndə duranların özləri keyfiyyət baxımından bir çox mühüm və vacib meyarlara cavab verməyə bilər.

Həmişə hesab etmişəm, yenə də həmin fikirdəyəm ki, rayonumuzun göstəriciləri qonşu rayonların nəticələri ilə müqayisədə üstündür və belə də qalmaqda davam edir. Bu, özünü həm iqtisadi sahədə, həm də humanitar sahədə göstərir və bizi sevindirir.

Bəs əgər söhbət sahibləndiyin potensialdan nə dərəcədə yararlanmaqdan gedirsə? Bax, onda suallar yaranır. Belə yanaşma qarşıya bəzi sahələrdə məyusedici mənzərələr çıxarır. Və bu, şübhə yoxdur ki, hər bir kadrın, vəzifə pilləsindən asılı olmayaraq, yerində olmağıyla bağlı məsələdir. Bəli, məhz kadrla bağlı məsələ.

Baxmayaraq ki, mövcud potensialımızın imkanları kifayət qədər genişdir və bu imkanların tətbiqi uğurun başlıca amili ola bilər. Bununla belə gerçəkliyi danmaq olmaz, heç mümkün də deyil. Məncə, biz məhz ehtiyatlardan lazımınca istifadə etmirik.

Əgər Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynov bizdən ən yüksək nəticələr tələb edirsə, buna yalnız sevinmək lazımdır. Ola bilər ki, müəyyən göstəricilərimiz qonşularımıza nəzərən üstün nəticələrdir. Əgər potensialımız yetərincədirsə, bununla kifayətlənmək olarmı? Axı, özümüz də yaxşı bilirik ki, ehtiyatlarımızdan tam və dolğun istifadə etməmişik. Özündən razılığın, məncə, heç yeri də yoxdur. Niyə də rayonumuz respublika üzrə ilk sırada olmasın? Bax, hədəf bundan ibarətdir. Buna hazır olmaq lazımdır. Öhdəsindən gələ bilməyənlər, sadəcə kənara çəkilməlidirlər, özünün arzusuyla.

**İlyas İLYASOV**

# VƏTƏNƏ XİDMƏT HƏR BİR ÖVLADIN BORCUDUR

Bu gün qətiyyətlə deyə bilərik ki, Azərbaycan Ordusu regionda ən güclü ordudur. Çox uzağa getməyək. Aprel ayının əvvəllərində Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş hadisələr bunu bir daha təsdiqlədi. Atəşkəs rejimindən sonra ilk dəfə idi ki, düşmənə belə sarsıdıcı zərbə vuruldu. Düşmən genişmiqyaslı hərbi əməliyyatlarda Azərbaycan Silahlı Qüvvələrinin qüdrətini gördü.

Həm də bütün dünya gördü ki, Ermənistanın bu dəfəki təxribatı öz başında çatladı. Tərtər və Füzuli istiqamətlərində düşmən möhkəmləndirdiyi ön xətdən geri otuzduruldu. Azərbaycan Ordusunun bir neçə günlük müharibədə qazandığı parlaq qələbə kimi yaddaşlara həkk olunacaq 2 aprel həmçinin onu sübüt etdi ki, həm psixoloji üstünlük, həm də hərbi uğur Azərbaycan əsgərindədir.

Bəli, Azərbaycan əsgəri öz yenilməz gücü, cəsarəti, vətən sevgisi ilə dünyaya bildirdi ki, müharibənin geniş miqyasda aparılacağı təqdirdə də uğur məhz Azərbaycan ordusunundur. Ali Baş Komandan aprelin 2-nin Azərbaycan Ordusunun tarixində parlaq zəfər günü kimi qalacağını bəyan etdi.

Vətənə xidmət hər bir övladın borcudur. Ordu sıralarına yolasalma mərasimlərində gənclərimiz çıxış edərək torpaqlarımızı mənfur düşməndən azad etməyə hər an hazır olduqlarını, Ali Baş Komandan İlham Əliyevin əmrini gözlədiklərini bildirirlər. Onların şəhidlərimizin intiqamını almaq, işğal altındakı torpaqlarımızı azad etmək əzmi tükənməzdir.

Bu gün iftixar və qürur hissi ilə deyə bilərik ki, Silahlı Qüvvələrimizin sıralarında ləyaqətlə xidmət edən, ürəyi həmişə Qələbə eşqiylə çırpınan oğulların sırasında siyəzənli gənclər də vardır. Onlar şəhidlik zirvəsinə ucalmağı ən böyük şərəf və qürur sanır, torpaqlarımızın qorunması, vətənimizin müdafiəsi uğrunda canından, qanından keçməyə hər an hazır olduqlarını söyləyirlər. Hərbi hissələrin rəhbərliyindən əsgər evlərinə, valideynlərin ünvanına yollanan minnətdarlıq dolu təşəkkür məktubları söylədiklərimi bir daha təsdiqləyir.

Düşmən hücumunu dəf edərkən qəhrəmanlıqla həlak olmuş, ölümündən sonra «Hərbi xidmətdə fərqlənməyə görə» 3-cü dərəcəli medalla təltif edilmiş həmyerlimiz, Dağ Quşçu kənd sakini Ağadadaş Şahkərəmovun igidliyi bu gün hərbi xidmətə yola düşən hər bir gənc üçün əsil örnəkdir.

Şübhə yoxdur ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi, ordumuzun qüdrəti düşməni layiq olduğu yerdə oturdacaq, şəhidlərimizin qanı yerdə qalmayacaq.

**Rahim MUSTAFAYEV,**
**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Siyəzən rayon bölməsinin rəisi.**

# DÖVLƏT QULLUQÇULARININ PEŞƏ BAYRAMI QEYD OLUNMUŞDUR

Rayonumuzda Dövlət Qulluqçularının peşə bayramı geniş qeyd olunmuşdur. Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov və digər rəhbər şəxslər tədbir başlanmazdan əvvəl ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmiş və abidənin önünə gül dəstəsi qoymuşlar.

Mərasim Siyəzən Rayon İcra Hakimiyyətində davam etdirilmişdir. İcra başçısı Asif Hüseynov tədbir iştirakçılarını peşə bayramı münasibətilə təbrik etmişdir.

Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini Təhminə Bəxtiyarova məruzə edərək demokratik, hüquqi dövlət quruculuğu sahəsində Ulu Öndərin misilsiz xidmətlərindən, ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsinə göstərdiyi qayğıdan söhbət açmışdır.

Tədbirdə dövlət qulluğunda fərqlənənlərin bir qrupuna fəxri fərman verilmişdir.

****************************************

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 iyun 2016-cı il tarixli sərəncamı ilə uzun müddət dövlət qulluğunda səmərəli fəaliyyət göstərdiynə görə Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müavini-dini qurumlarla işin təşkilatçısı Balabəyov Balabəy Kiçibalı oğlu «Dövlət qulluğunda fərqlənməyə görə» medalı ilə təltif edilmişdir.

# MİLLİ QURTULUŞ GÜNÜ QEYD OLUNMUŞDUR

**«Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.»**

**Heydər ƏLİYEV,**
**ümummilli lider.**

Bir millətin, xalqın tarixində müstəqillik qədər müqəddəs nemət yoxdur. Müstəqillik verilmir, onu hər bir xalq öz igid, cəsur oğullarının qanı, canı bahasına əldə edir.

Xalqımız da yolunu illərlə gözlədiyi bu gözəl nemətin şirinliyini 1918-ci ildə ilk dəfə dadsa da, 1993-cü ilin iyununda buna tam nail oldu.

Ancaq unutmayaq ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətin və şərəflidir. Bu olduqca çətin və müqəddəs missiyanı isə xalqımızın yenilməz oğlu, ümummilli lideri Heydər Əliyev öz üzərinə götürdü. Onun ikinci dəfə hakimiyyətə gəldiyi gün-15 iyun günü isə Azərbaycanın tarixinə Milli Qurtuluş günü kimi daxil oldu.

Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixidir. Bu tarixi yaradan daim xalqına arxalanan, xalqı da hamişə ona arxa olan, vətəninin, doğma Azərbaycanın inkişafını, gələcəyini özünə şərəf bilən Heydər Əliyevdir.

Azərbaycan xalqının tarixində çox mühüm yer tutan 15 iyun-Milli Qurtuluş günü rayonumuzda da təntənəli şəkildə qeyd olunmuşdur. Bu münasibətlə mədəniyyət evində düzənlənən tədbiri giriş sözü ilə Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini Təhminə Bəxtiyarova açaraq Azərbaycan dövlətçiliyinin ağır sınaqlara çəkildiyi məqamlarda ümummilli lider Heydər Əliyevin xalqın təkidiylə hakimiyyətə gəldiyini, ölkəmizi böyük bəlalardan, faciələrdən xilas etdiyini bildirmişdir.

Digər çıxış edənlər Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin baş məsləhətçisi Xumara Abdullayeva, Mədəniyyət Mərkəzinin direktoru Ziyada Dadaşova, Uşaq Yaradıcılıq Mərkəzinin direktoru Şəms Hüseynova bildirmişlər ki, Heydər Əliyev bütün həyatını, bilik və təcrübəsini, qüvvə və bacarığını xalqın xoş gələcəyinə, onun bəlalardan xilas olmasına sərf etmiş, inkişafımızın düzgün strategiyasını bizlərə əmanət qoymuşdur. Vurğulanmışdır ki, ümummilli lider Heydər Əliyev sözün əsl mənasında Azərbaycanın ən yeni tarixinin yaradıcısı, müstəqil dövlətimizin memarı, yeni və modern dövlətçilik ənənələrimizin müəllifidir. Çıxış edənlər həmçinin Ulu Öndərin müəyyənləşdirdiyi strateji inkişaf kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini bildirmiş, görülən işlərdən söhbət açmışlar.

**«ÇIRAQ»**

# MÜQƏDDƏS RAMAZAN AYI

**«Biz İslam həmrəyliyini gücləndirməliyik. Müsəlman aləmində sülh və sabitlik möhkəmlənməlidir.»**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasnın Prezidenti.**

Dövlətçilik mili-mənəvi dəyərlərin qorunmasına hər zaman yüksək diqqət göstərir. Bu ənənənin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Müqəddəs kitabların nazil olduğu müqəddəs Ramazan ayı başa çatmaq üzrədir. Müsəlmanların həyatında mühüm yer tutan Ramazan ayı ölkəmizdə də yüksək səviyyədə qeyd edilir. Müsəlman aləminin ayrılmaz hissəsi olan Azərbaycan bu gün həm də bütün islam dünyasında böyük nüfuza malikdir.

Hamınızı müqəddəs Ramazan bayramı münasibətilə təbrik edirik. Bütün müsəlman dünyasına, xalqımıza sülh, firavanlıq və xoşbəxtlik arzulayırıq.

**«ÇIRAQ»**

# Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra № | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü | Qəbul saatı |
|---|---|---|---|---|
| 1 | Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı | Hüseynov Asif Həbib oğlu | çərşənbə axşamı | saat 11:00-dan başlayır |
| 2 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Əliyev Zəfər Nüsrət oğlu | bazar ertəsi | saat 14:00-dan başlayır |
| 3 | Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Bəxtiyarova Təhminə Vahid qızı | çərşənbə | saat 14:00-dan başlayır |
| 4 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Bəşirov Xaqani Paşa oğlu | cümə | saat 11:00-dan başlayır |
| 5 | Hüquq şöbəsinin müdiri | Əliyev Şəmşad Məcid oğlu | şənbə | saat 11:00-dan başlayır |
| 6 | Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar | Novruzov Səxavət Mehdi oğlu | bazar ertəsi | saat 10:00-dan başlayır |
| 7 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Mursaquliyev Feyyaz Lətifulla oğlu | cümə axşamı | saat 10:00-dan başlayır |
| 8 | İnformasiya təminatı və təhlil sektorunun müdiri | Mürvətov Rəhman Nəcməddin oğlu | çərşənbə | saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.
2. Rayon İcra Hakimiyyəti başçısının qəbulu günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.
3. Vətəndaşların qəbulu ilə əlaqədar əlaqə telefonu: **(23) 304-00-10**

# Siyəzən Rayon İcra Hakimiyyəti başçısının 2016-cı ilin iyul ayında keçirəcəyi səyyar qəbulların QRAFİKİ

| Sıra №-si | Qəbulun keçiriləcəyi yer | Tarix | Saat |
|---|---|---|---|
| 1 | Böyük Həmyə kəndi, kənd tam orta məktəbin binası | 01.07.2016 | 11:00 |
| 2 | Gilgilçay qəsəbəsi, qəsəbə tam orta məktəbin binası | 08.07.2016 | 11:00 |
| 3 | Yenikənd kəndi, kənd tam orta məktəbin binası | 15.07.2016 | 11:00 |
| 4 | Qozağacı kəndi, kənd ümumi orta məktəbin binası | 22.07.2016 | 11:00 |
| 5 | Beşdam kəndi, kənd ümumi orta məktəbin binası | 29.07.2016 | 11:00 |

# Dövlət orqanlarının yerli qurumlarında vətəndaşların qəbulu CƏDVƏLİ

| S. №-si | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü və saatı |
|---|---|---|---|
| 1. | Siyəzən Rayon Gənclər və İdman İdarəsinin rəisi | Məmmədov Nadir Əmrulla oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 2. | Siyəzən Rayon Təhsil Şöbəsinin müdiri | Hacıyev Rəfail Məmmədrıza oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 3. | Siyəzən Telekommunikasiya Qovşağının rəisi | Kəbirov Rafiq Kəbir oğlu | Hər iş günü, saat 15:00-dan başlayır |
| 4. | Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzinin baş həkimi | Hümbətov Dadaş Ümüd oğlu | Hər iş günü, saat 11:00-dan başlayır |
| 5. | Siyəzən rayon Mərkəzi Poliklinikanın baş həkimi | Quliyev Əhməd Əli oğlu | Hər iş günü, saat 10:00-dan başlayır |
| 6. | Siyəzən rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru | Yaqubov Mehman Nəcməddin oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 7. | Xaçmaz Regional Qaz İstismar İdarəsinin Siyəzən Xidmət Sahəsi üzrə rəis müavini | Mirzəyev Nizami Rza oğlu | Çərşənbə axşamı və cümə axşamı günü,.saat 15:00-dan başlayır |
| 8. | Sukanal İdarəsinin rəisi | Qurbanov Faiq Hacıqulu oğlu | Çərşənbə axşamı və cümə günü, saat 15:00-dan başlayır |
| 9. | Dövlət Sosial Müdafiəsi Fondunun Siyəzən rayon şöbəsinin müdir əvəzi | Məmmədov Ramil Vahid oğlu | Cümə günü saat 16:00-dan başlayır |
| 10. | Siyəzən rayon Əhalinin sosial müdafiəsi mərkəzinin direktoru | Yusifova Kamilə Şəmsəddin qızı | Çərşənbə axşamı və cümə axşamı günü, saat 10:00-dan başlayır |
| 11. | Siyəzən Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin direktor əvəzi | Əlizadə Alim Vidadi oğlu | I, III, IV günlər, saat 11:00-dan başlayır |
| 12. | Siyəzən rayon Baytarlıq İdarəsinin rəisi | Qasımov Seyfulla Eynulla oğlu | Çərşənbə günü, saat 10:30-dan başlayır |
| 13. | Siyəzən rayon Məşğulluq Mərkəzinin direktoru | Heydərov Etibar Murad oğlu | Çərşənbə günü, saat 10:00-dan başlayır |
| 14. | Siyəzən rayonu üzrə Maliyyə Şöbəsinin rəisi | Nemətov Samir Sabir oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 15. | «Azərpoçt» MMC-nin Siyəzən Poçt Filialının rəisi | Əliyev Akif Hacı oğlu | Bazar ertəsi və cümə axşamı günü, saat 14:00-dan başlayır |
| 16. | Siyəzən Rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri | Qədirli Zəminə Əlikram qızı | Cümə günü, saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.

# DƏRS İLİNİN YEKUNU

Başa vurduğumuz 2015-2016-cı dərs ili Siyəzən rayonunun təhsil işçiləri üçün bir çox göstəricilərlə zəngin olmuş, dövlət quruculuğunun ayrılmaz hissələrindən biri olan təhsilin uğurlu inkişafı ilə yadda qalmışdır. Keçən dərs ilində dünya təcrübəsi əsasında hazırlanmış yeni fənn kurikulumları və dərslik komplektləri I-VIII siniflərdə tətbiq olunmuş, təhsildə bir sıra müsbət nəticələr əldə edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 17 dekabr 2015-ci il tarixli sərəncamı ilə Siyəzən şəhər 6 saylı məktəb-lisey «Ən yaxşı ümumtəhsil məktəbi» (direktor Yeganə Əliyeva) müsabiqəsinin qalibi hesab olunmuş, müvafiq qaydada mükafatlandırılmışdır. Siyəzən şəhər 1 saylı tam orta məktəbin direktoru Nəcməddin Mürvətov Prezidentin 30 sentyabr 2015-ci il tarixli sərəncamı ilə «Əməkdar müəllim» fəxri adına layiq görülmüşdür. Siyəzən şəhər 2 saylı tam orta məktəbin fizika müəllimi Fəridə Ağayeva «Elektron məktəb» respublika müsabiqəsində II yerə layiq görülmüşdür. Siyəzən şəhər 3 saylı tam orta məktəbin dil-ədəbiyyat müəllimi İlhamə Sultanova Azərbaycan və Ukrayna Təhsil Şuralarının birgə təşkil etdikləri beynəlxalq konfransın iştirakçısı olmuşdur. Şagirdlərimiz rayon və respublika səviyyəli müxtəlif olimpiadalarda, televiziya yarışmalarında, inşa yazı müsabiqələrində, intellektual bilik yarışmalarında, idman turnirlərində iştirak etmişlər.

Məlum olduğu kimi, artıq bir neçə ildir ki, IX və XI siniflərdə buraxılış imtahanları Tələbə Qəbulu Üzrə Dövlət Komissiyası (hazırda İmtahan Mərkəzi) tərəfindən mərkəzləşdirilmiş şəkildə aparılır. 2016-cı il 16 iyun tarixdə aparılmış buraxılış imtahanlarının nəticələrini təhlil etdikdə aşağıdakılar aydın olmuşdur.

2015-2016-cı dərs ilində Siyəzən rayon ümumtəhsil məktəblərinin IX siniflərini (ümumi orta təhsil bazasında) 495 nəfər şagird bitirmiş və onların hamısı imtahana buraxılmışdır. İmtahanda 491 nəfər iştirak etmişdir. Onlardan 339 nəfər hər iki imtahandan müsbət qiymət almışdır. 101 nəfər şagird imtahandan «4» və «5» qiymət almışdır. Müvəffəqiyyət 69%, keyfiyyət isə 21% olmuşdur. Ana dili fənni üzrə müvəffəqiyyət 81%, keyfiyyət 27,5%, riyaziyyat üzrə isə müvəffəqiyyət 76,6%, keyfiyyət 28,7% olmuşdur. IX siniflər üzrə Siyəzən şəhər 1, 2, 3, 4 və 6 saylı, Zarat və Məşrif kənd tam orta məktəblərinin müvəffəqiyyət faizi rayonun orta göstəricisindən, Siyəzən şəhər 2, 3 və 6 saylı tam orta məktəblərin keyfiyyət faizi isə rayonun orta göstəricisindən yüksək olmuşdur.

XI siniflər üzrə (tam orta təhsil bazası üzrə) imtahana buraxılan 341 nəfərdən 338 nəfəri imtahanda iştirak etmişdir. Onlardan 224 nəfəri hər üç imtahandan müsbət qiymət almışdır. 93 nəfər «4» və «5» qiymət almışdır. Müvəffəqiyyət 69%, keyfiyyət isə 28,5% olmuşdur. Ana dili üzrə müvəffəqiyyət 89,3%, keyfiyyət 51%, riyaziyyat üzrə müvəffəqiyyət 90,2%, keyfiyyət 51,8%, xarici dil üzrə müvəffəqiyyət 75%, keyfiyyət 32% olmuşdur. Siyəzən şəhər 1, 2, 6 saylı və Zarat kənd tam orta məktəblərinin müvəffəqiyyət və keyfiyyət faizi rayonun orta göstəricisindən yüksək olmuşdur. Siyəzən şəhər 3, 4 saylı, Gil-gilçay qəsəbə, Yenikənd, Balaca Həmyə, Məşrif kənd tam orta məktəblərinin göstəriciləri rayonun ümumi göstəricilərinə yaxındır. IX siniflər üzrə 30-a qədər, XI siniflər üzrə 28 şagird bütün imtahanlardan «5» qiymət almışdır.

Aldıqları qiymətlərdən asılı olmayaraq imtahana buraxılan bütün şagirdlərə şəhadətnamə və attestat verilir. Lakin ümumilikdə IX siniflər üzrə 152 şagirdin bir və ya iki fəndən, XI siniflər üzrə isə 114 şagirdin bir, iki və ya üç fəndən «2» qiymət alması narahatlıq doğurur və bu, həm məktəb rəhbərlərini, həm də bütün müəllimləri düşündürməlidir.

Lakin digər məktəblərin, xüsusilə Eynibulaq, Sədan tam orta, İnternat, Yanıq Ələz kənd ümumi orta məktəblərinin nəticələri qənaətbəxş deyildir.

İmtahanların nəticələri məktəblərin pedaqoji şuralarında müzakirə olunmuş, mövcud vəziyyətlə bağlı qərarlar qəbul edilmişdir.

Məzunlarımızın əksəriyyəti abituriyent olaraq böyük sınaq qarşısındadır. Bir neçə gündən sonra qəbul imtahanları başlayacaqdır. İnanırıq ki, son illərdə olduğu kimi, bu il də fərəhləndirici nəticələr qazanmaqla həm valideynlərini, həm də müəllimlərini, həm də ictimaiyyətimizi sevindirəcəklər. Təbii ki, ən çox sevinən özləri olacaqlar. Bu yolda abituriyentlərə müvəffəqiyyət arzulayırıq.

**Cəfər BAĞIROV,**
**Siyəzən RTŞ metodkabinetinin direktoru,**
**Respublikanın əməkdar müəllimi.**

# ƏHALİNİN SAĞLAMLIĞI KEŞİYİNDƏ

Ölkəmizdə son illərdə sosial-iqtisadi həyatın bütün sahələrini əhatə edən islahatlar proqramı səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmlənməsinə, əhaliyə göstərilən xidmətin səviyyəsinin günbəgün yaxşılaşmasına şərait yaratmışdır.

İndi elə bir yaşayış məntəqəsi tapmaq mümkün deyildir ki, orada əhali müasir tələblərə cavab verən tibb ocaqları ilə əhatə olunmasın.

Rayonumuzun əhalisinə Mərkəzi Poliklinika, 5 həkim məntəqəsi və 9 tibb məntəqəsi səhiyyə xidməti göstərməkdədir. Rayon Mərkəzi Poliklinikasında iki şöbə vardır: böyük yaşlılara və uşaqlara xidmət edən şöbələr. Bundan başqa Rentgen, USM, Fizioterapiya kabinetləri də vardır.

Biz çalışırıq ki, əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətini daha da yüksəldək. Bu məqsədlə bütün qüvvəmizi sərf edirik.

Poliklinikamız gündə 150 nəfərədək posient qəbulu gücünə malikdir. Rayon əhalisinə 5 terapevt, 8 pediatr, cərrah, nevropotoloq, kardioloq, ginekoloq tibbi xidmət göstərir. Onlar insanların sağlamlığı keşiyində ayıq-sayıq dayanmışlar, müxtəlif xəstəliklərə qarşı profilaktik tədbirlər müasir tələblər səviyyəsində həyata keçirilir.

Hər gün bu səhiyyə ocağına müxtəlif ünvanlardan onlarca insan gəlib-gedir. Biz çalışırıq ki, xəstələrin müayinə və müalicəsi yüksək səviyyədə aparılsın, xidmətimiz hamını razı salsın.

Poliklinikamızda 600-dək şəkər xəstəsi, 238 nəfərdən çox onkoloji xəstə, eləcə də 400 nəfərə yaxın ruhi-əsəb xəstəsi daimi həkim nəzarətindədir. Bu xəstələr hər ay dövlət tərəfindən pulsuz dərmanlarla təchiz olunurlar.

Həkimlərimiz tərəfindən əhali arasında xəstəliklərin aradan qaldırılması ilə bağlı geniş maarifləndirmə işləri aparılır. Xəstələrə «Narkomaniyaya yox deyək!», «Alkoqol qəbulu ölümə aparan yoldur» və s. mövzularda aparılan söhbətlər, xüsusilə məktəblərdə yuxarı sinif şagirdləri üçün oxunan mühazirələr şübhəsiz ki, həmişə öz müsbət nəticəsini verir.

Biz səhiyyə işçiləri bundan sonra da əhaliyə yüksək səviyyəli tibb xidməti göstərmək üçün bütün qüvvəmizi sərf edəcəyik.

**Əhməd QULİYEV,**
**Mərkəzi Poliklinikanın baş həkimi.**

# SUVARMA SİSTEMLƏRİ İDARƏSİ

Ölkəmizdə meliorasiya və su təsərrüfatının inkişafında Ulu Öndər Heydər Əliyevin tarixi xidmətləri böyükdür. Qədim suvarma əkinçiliyi ənənələrinə malik Azərbaycanda müasir meliorasiya və irriqasiya işlərinə keçən əsrin əvvəllərində başlanılsa da, bu sahə əsasən ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə inkişaf etmişdir.

Ulu Öndərin ölkədə meliorasiya və su təsərrüfatının inkişafına yönəlmiş siyasəti indi onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Son illərdə ölkədə su təsərrüfatı və meliorasiya sahəsinə əsaslı kapital qoyuluşu dəfələrlə artıb. Bunun nəticəsi olaraq sahənin maddi-texniki bazası gücləndirilib.

Siyəzən rayonunda meliorasiya və su təsərrüfatı sahələrinə xidmət göstərmək, su istehlakçılarını su ilə təmin etmək, su obyektlərindən götürülən suları müəyyən olunmuş qaydada bölüşdürmək və onlardan istifadəyə nəzarət etmək gündəlik fəaliyyətimizin əsasını təşkil edir.

«Samur-Abşeron» suvarma sisteminin yenidən qurulması» layihəsi çərçivəsində mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi nəticəsində rayonun ümumi suvarılan sahəsi 12137 ha təşkil etmişdir ki, bunun da 5165 hektarı yaxşılaşma, 6972 hektarı isə yeni sahələrdir. 6972 hektar sahədən 4009 ha bələdiyyə mülkiyyətinin, 1762 ha dövlət mülkiyyətinin və 1201 ha isə xüsusi mülkiyyətin payına düşür.

2015-ci ildə layihə çərçivəsində 2606 ha sahəyə suvarma və drenaj şəbəkəsi çəkilmişdir.

İdarəmiz 5869 ha əraziyə xidmət edir. Bunun 4728 ha Siyəzən rayonunun, 1141 ha isə Şabran-Quba rayonlarının payına düşür. Əsas suvarma mənbəyi Samur-Abşeron kanalı, Gil-gilçay və Ataçay çaylarıdır. İdarənin xidmət etdiyi suvarma kanallarının ümumi uzunluğu 247,4 km-dir. 2016-cı ilin istismar tədbirləri planında 149,55 km suvarma kanalının lildən təmizlənməsinin nəzərdə tutulmasına baxmayaraq 6 ay ərzində bütün kanallar lildən təmizlənmişdir. Kanallar tamamilə lildən təmizlənmiş və əhali suvarma suyu ilə təmin edilmişdir.

2016-cı ilin 6 ayı ərzində rayon ərazisində aşağıdakı kənd təsərrüfatı bitkiləri əkilmişdir: 956 ha taxıl, 355,9 ha bostan-tərəvəz, 1344,1 ha biçənək, 993 ha təsərrüfat bitkiləri. Ötən müddət ərzində 10158 ha ərazi suvarılmışdır ki, bunun üçün də kanaldan 8569 min kub m., Gil-gilçaydan isə 429 min kub m. suvarma suyu götürülərək birbaşa sahəyə 6655,5 min kub m. suvarma suyu verilmişdir.

İdarənin gördüyü işlərdə Sudan İstifadə Üzrə mühəndis Bağırov Mehman, nizamlayıcılardan Əhmədov Böyükağa, Atakişiyev Atakişi, sürücülərdən Sədrəddinov Qeybulla, Abbasov Anar, mexanizatorlardan Ağayev İbrahim, Ələkbərov İmamverdi, Atakişiyev Əliheydər daha fəal iştirak etmişlər.

Prezident İlham Əliyevin 14 may 2014-cü il tarixli sərəncamı ilə 5 iyun «Su təsərrüfatı və meliorasiya işçiləri günü» peşə bayramı kimi təsis edilib. Bu münasibətlə idarə hər il olduğu kimi bütün kollektivi ilə birlikdə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Su təsərrüfatının inkişafında xüsusilə fərqlənən işçilərdən Atakişiyev Atakişi Meliorasiya və Su təsərrüfatı ASC-nin sədri tərəfindən Fəxri Fərmanla təltif olunmuşdur.

**Niyazi QƏDİMOV,**
**Siyəzən Suvarma Sistemləri İdarəsinin rəisi.**

# SON ZƏNG ÇALINMIŞDIR

Son zəng tədbiri respublikanın bütün ümumtəhsil müəssisələrində olduğu kimi R. Abdulrəhimov adına Gilgilçay qəsəbə tam orta məktəbində də yüksək səviyyədə qeyd edilmişdir. Tədbiri məktəbin direktoru Samir Baxşıyev giriş sözü ilə açaraq ötən tədris ilində məktəbin uğurlarından və qarşıdakı vəzifələrdən, ölkə rəhbərliyinin təhsilə olan diqqət və qayğısından geniş şəkildə bəhs etmişdir.

O, qeyd etmişdir ki, 2012-ci ildə müasir tələblər səviyyəsində inşa edilmiş məktəb binasının istismara verilməsi Gilgilçay qəsəbə tam orta məktəbinin həyatında ən mühüm hadisə olmuşdur. Yeni məktəb binasının istismara verilməsi məktəbin uğurlarının artması üçün stimul olmuşdur. Təəssüf hissi ilə qeyd edilmişdir ki, 2008-2013-cü ilə qədər olan dövrdə məktəb məzunlarından 1 nəfər belə ali məktəbə daxil olmadığı halda, bu ildən etibarən məktəbin məzunlarının ali məktəblərə qəbul olması artıq ənənə halını almışdır.

Son üç il ərzində məktəbimizin 5 nəfər məzunu ali məktəblərə qəbul olaraq tələbə adını qazanmışdır. Bundan əlavə rayon miqyasında keçirilən rəsm, inşa və şeir müsabiqələrində məktəbin şagirdləri uğur qazanaraq müxtəlif fəxri fərman və hədiyyələrlə mükafatlandırılıb. Məktəbin uğurları içərisində «Şahin» hərbi-idman oyunlarında məktəb komandasının son 3 il ərzində 2-ci və 3-cü yerləri tutması xüsusi qeyd edilmişdir.

O, çıxışının sonunda məktəbi bitirən məzunları təbrik edərək onlara gələcək həyatlarında uğurlar arzulamışdır. Tədbirdə qəsəbə ağsaqqalı, şəhid atası Gülmalı Abdulrəhimov, məktəbin müəllimləri, valideynlər çıxış edərək məzunlara xoş arzularını çatdırmışdır.

Tədbir məktəblilərin hazırladığı musiqili-bədii çıxışları ilə davam etmişdir. Rayon Gənclər və İdman idarəsinin rəisi Nadir Məmmədov, Suvarma Sistemləri İdarəsinin rəisi Niyazi Qədimov, Gilgilçay qəsəbə İƏD üzrə nümayəndə Ceyhun Əliyev məzunlara ürək sözlərini çatdırıb, onlara müstəqil həyatda uğurlar arzulayıblar.

Sonda 1-ci və 11-cilərin bir-birini təbriki və son zəngin çalınması ilə tədbir başa çatmışdır.

**Samir BAXŞIYEV,**
**Gilgilçay qəsəbə tam orta məktəbin direktoru.**

# MEDALLA TƏLTİF EDİLDİ



Dövlət qulluğunda işə başladığı ilk vaxtlardan ta bu günədək nizam-intizamı, tapşırıqların icrasına yüksək məsuliyyətlə yanaşması ilə fərqlənən Balabəy Balabəyovu bu gün təbrik edənlərin sayı çoxdur. O, uzun illərdir ki, dövlət qulluğunda çalışır.

Dövlət quruculuğu sahəsində uğurlu islahatların aparıldığının şahidiyəm. Azərbaycan dövlətçilik tarixində ilk dəfə olaraq 2000-ci il iyulun 21-də ölkəmizin müasir dövrün tələblərinə uyğun idarə olunmasını və müstəqilliyimizin möhkəmləndirilməsini təmin edən kadr siyasətinin yeridilməsinə, dövlət qulluqçularının hüquq və vəzifələrinin müəyyənləşdirilməsinə xidmət göstərən «Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu» qəbul olunmuşdur. Ölkə Prezidenti İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Qanun təkmilləşdirilmiş, dövlət qulluğunda çalışanların iş şəraiti, maddi-rifah halı xeyli yaxşılaşmışdır.

Ölkəmizdə dövlət qulluğunun formalaşmasında Ulu Öndərin müstəsna xidmətlərini söyləyən B. Balabəyov dövlət qulluğunda çalışanların əməyini yüksək dəyərləndirdiyi üçün ölkə başçısı cənab İlham Əliyevə dərin minnətdarlığını da ifadə etdi.

Həmsöhbətim müxtəlif işlərdə çalışıb. Əmək fəaliyyətinə Bakı Mədəni-maarif məktəbini bitirdikdən sonra, 1984-cü ildə Siyəzən şəhər klubunda mədəni-təşkilatçı kimi başlayıb. Sonrakı illərdə Dəvəçi rayon mədəniyyət şöbəsində müxtəlif vəzifələrdə, Dəvəçi Rayon İcra Hakimiyyətinin Humanitar məsələlər üzrə şöbədə böyük məsləhətçi, Dəvəçi Rayon İcra Hakimiyyəti başçısının Ağbaş İƏV üzrə nümayəndəsi…

2002-ci ildənsə Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatının ərazi idarəetmə orqanları ilə iş şöbəsində böyük məsləhətçi, 2011-ci ildən aparatın Təhsil, səhiyyə və Mədəniyyət məsələləri şöbəsində baş məsləhətçi, 2012-ci ildən ictimai-siyasi və humanitar məsələlər şöbəsində baş məsləhətçi vəzifələrində işləyib.

2015-ci ilin dekabr ayından isə ictimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı vəzifəsində işləyir.

Hələ gənclik illərində Azərbaycan Dövlət İncəsənət İnstitutunu da bitirib ali təhsil alan Balabəy müəllimi oxucular həm də maraqla izlədiyimiz «Kişi sözü» bədii filmindən yaxşı tanıyırlar. Adaşı olan sürücü obrazı öz incə yumoru, şirin danışıq tərzi ilə tamaşaçıların sevimlisidir. İstedad və bacarığı ilə tələbə yoldaşları arasında da seçilirdi. Bəlkə də aktyorluğa meyl salsaydı, onu seçim etsəydi bu gün tanınmış sənətkar da ola bilərdi.

Balabəy müəllimsə öz gücünü dövlət qulluğu sahəsində sınamağa qərar verdi. Çalışdığı ötən illərsə onu uğur gətirməklə yanaşı təlabkar, məsuliyyətli, peşəkar dövlət qulluqçusu kimi yetişməsində mühüm rol oynadı.

**R. MURADOVA.**

# MEHDİ NOVRUZ



Mehdi Novruz. Həmişə bu imzanı görəndə, şeirlərini oxuyanda nədənsə yadıma gözəl şairimiz Musa Yaqub düşür. Niyə? Hər ikisi təbiət aşiqidir. «Anamızdır təbiət, torpaqdan yaranmışam» deyən Mehdi müəllimin də yaradıcılığında əsas yeri təbiət mövzusu tutur. Bu misralara baxın:

*-Bilmədim bu payız heç nə vaxt gəldi,*
*Meşələrə qızıl donu kim biçdi.*
*Buludlar sıxlaşıb bir az kövrəldi,*
*Sıxdı ləçəyini, yal-yamac içdi.*

Poetik qüvvət göz qabağındadır. Nəsə fikir söyləməyə, məncə, heç ehtiyac da yoxdur. Şair sanki rəsam fırçasıyla lövhə çəkir

Mehdi Novruzun fizika müəllimi olduğunu çox sonralar bildim . Uzun müddət filoloq kimi tanıdığım Mehdi müəllim, məncə, dünyaya göz açanda Tanrıdan qismətinə şairlik yazılanlardandır. Nə şeir yazmaq üçün saatlarla masa arxasında əyləşənlərdəndir, nə də güc-bəla ilə sözü-sözə calayanlardan.

Çox demirəm, bircə kitabını, yaxud bir neçə şeirini oxumaq kifayətdir ki, inamla deyəsən: Mehdi Novruzun yazdıqları ürəyindən süzülüb gələnlərdir. El demişkən, ürəkdən çıxmayan ürəyə yatmaz. Mehdi müəllim onları sadəcə ağ vərəqlərə köçürür. Vəssalam.

1978-ci ildən mətbuatdayam. Əvvəllər qonşu Dəvəçi (indi Şabran) rayonunda çalışmışam. 1992-ci ildənsə jurnalistlik fəaliyyətim «Çıraq»la bağlıdır. İnanın, bu uzun illər ərzində onun redaksiyaya gəlişini 2, ya da 3 dəfə görmüşəm, desəm yanılmaram. Mehdi müəllim şeirlərinin dərci üçün redaksiyanın kandarını çıxaranlardan olmayıb, əksinə qələminə az-çox bələd olan bizlər dəfələrlə xəbər göndərmişik ki, yazılarından ara-sıra redaksiyaya da yollasın. Elə özünün dili ilə desək:

*Redaksiya ünvanına üz tutub,*
*Gündə məktub yazanlara nə deyim.*
*Xoş əvqatı bezikdirib, turşudub,*
*Xoş əhvalı pozanlara nə deyim.*

Tələbkar oxucu kimi deyə bilərəm ki, şairin mövzu dairəsi genişdir. Təbiət, onun insanı valeh edən gözəllikləri, doğma yurda, ocağa bağlılıq. Məhəbbət, sevən bir qəlbin iztirabları. Və nəhayət, həyatın enişyoxuşlarından keçən narahat şair ürəyinin həyəcanları.

«İnsan bir ömürlük yolun yolçusu» deyən şairin bu günlərdə 70 yaşı tamam olmuşdur. Ülfətdən, sevgidən yükünü tutub aramla yeriyən, gedən ömür karvanı şairə nələri qazandırdı? Gözəl ailəsi var, ona hər zaman başucalığı gətirən övladları, nəvələri, el-oba hörməti. Bir də vəfalı dostları.

Dostdan söz düşmüşkən, indi respublikamızda şair-aşıq kimi tanınan Aşıq Haşım Qubalı, Dədə Ələsgər ocağının yadigarı Əvəz Mahmud Lələdağ, yarım əsrdən artıq dostluq etdiyi Paşa müəllim, Cəlilabadlı Səxavət, uşaqlıq dostu Cəmil müəllim, keçmiş şagirdləri Babaxan müəllim, Məhəmməd müəllim, gənclik dostu Şüleyman, Mirbağır müəllim

*«Bərk ayaqda dağ igidə arxadır,*
*Dağ vüqarlı ucalığı qoruyun,*
*Cavan ikən qocalığı qoruyun.»*

-deyən şair Mehdi Novruz cavanlıqda olduğu kimi, ömrün bu vədəsində də dağların qoynundadır, dağlara həmdəmdir, ata-baba ocağı Çuxurazəmi kəndindədir. Hələ cavanlıqdan sevə-sevə sinəsinə sıxdığı, çox gözəl ifa etdiyi, «Könlümün səsi» adlandırdığı tarı da, heç vaxt əlindən düşməyən kitab-dəftəri də onunladır.

*Şeh düşdü güllərin ləçəyi üstə,*
*Duman da, çiçək də öz işindədir.*
*Könül vəsf etməkdə, təzə həvəsdə,*
*Dünya da öz köhnə yerişindədir,*

-deyən şair Mehdi Novruza Tanrıdan can sağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Reyhan MURADOVA.**

## 70-də

*İllər axarında təxtim yüksəldi,*
*50 asta gəldi, keçdi də getdi,*
*60 bir bəyaz dumanla gəldi,*
*Gəldi, biçdiyini biçdi də getdi.*

*Nəğmələrim susdu, gülzarım soldu,*
*Endi ucalardan ömür yelkəni,*
*Qulaq eşitmədən, göz nurdan qaldı,*
*Üşütdü itgilər 70-də məni.*

*Bir-bir olanımı verdikcə yelə,*
*Diksindim yoxluğun dadın biləndə,*
*Səksənə bir onluq qalmışkən hələ*
*Səksəndim, səksənin adı gələndə.*

*Anlar, dəqiqələr məni haraylar,*
*Məndən sorğularlar hər sübh yaşımı.*
*Görən, nədən belə tələsir aylar,*
*Atmaq üçün bu qəriblik daşımı.*

*Bir az vaxt ver mənə, ey vaxt hakimi,*
*Yazılmamış sözüm, kitabım üçün.*
*Saldın atdan neçə-neçə igidi,*
*Tələsmə dünyayla hesabım üçün.*

*Quş olub göylərdə dedim, uçum mən,*
*Yatıb dincəlməyə gəlmədim axı.*
*Dünyanın məhvəri hərəkətdəykən,*
*Saxlamaq mümkünmü bu nəhəng çarxı?!*

*Gözyumlu gedərəm xeirxah işçün,*
*Xeyirmi, ziyanmı, bilmirəm, vallah.*
*Bir, uzun ömürçün, bir, var-dövlətçin,*
*Ölsəm də qapına gəlmərəm, Allah!*

*Diləyim var səndən, eşit sözümü,*
*Yaxşıları bir az çox yarat, Allah!*
*Şəfəqlər bürüsün qoy yer üzünü.*
*Gülsün insanlığa bu büsat, Allah!*
*Yaxşıları bir az çox yarat, Allah!*

**Mehdi NOVRUZ.**

# TƏBRİK EDİRİK

Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü olan Əlisəfa Soltan oğlu Azayev 1951-ci ildə Kürdəmir rayonunun Qaramahmudlu kəndində anadan olub. Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirib. 1992-1996-cı illərdə BDU-nun konstitusiya hüququ üzrə aspiranturasında oxuyub.

Ə. Azayev müasir nəsr yazarları içərisində dedektiv əsərləri ilə seçilən yazıçıdır. Bir tərəfdən dövlətçilik, digər tərəfdən isə yazıçının bu janrda peşəkarlığı və hadisələrin gərgin psixoloji təqdimatı əsərlərini oxunaqla edib. O. əsərlərində təkcə hadisələri oxucuya sadalama yolu ilə getmir, onların bədii həllinə də ciddi fikir verir və məhz buna görə də hadisələrin bədii şərhində yazıçı süjetə nəzarət etməyi bacarır, oxucu üçün hər bir povesti maraqlı edən yarımbaşlıqlar tapır.

Povestlər müəllifi əsəri ,hadisələrlə yükləmir, ağırlaşdırmır, onları saf-çürük edir, əhvalatların rəvanlığına, təbii axarına nail olur. Bütün bunlar yarımbaşlıqlar vasitəsilə «Zəhərli qədəh», «Gözlənilməz qonaq», «Qatil kimdir?», «Müstəntiqin şübhəsi», «Qaçmağa cəhd», «Dəhşətli gecə» və s. verilir və oxucu marağına səbəb olur. Yazıçının ustalığı özünü dialoqqurma prosesində də göstərir. Məlumdur ki, bu tipli əsərlərdə istintaqa cəlb edilmiş adamlar sorğu zamanı müəyyən nəticə alınana qədər müxtəlif suallara cavab verməli olurlar. Belə dialoqların qurulması yazıçıdan müəyyən ustalıq tələb edir ki, oxucu yorulmasın. Və yazıçı buna uğurla müvəffəq olur.

Oxucu bütün povestlərə ilk andan, ilk sətirlərdən bədii əsərlərə məxsus olan müqəddimə ilə daxil olur.

«Gecədən xeyli keçmişdi. Şəhərdə tam sakitlik idi. Qəflətən eşidilən qadın fəryadı çoxlarını şirin yuxudan oyatdı. Milis növbətçisi leytenant Malik Sadıqov da gecəni diksindirən dəhşətli səs-küyü eşitdi. Elə bu vaxt telefon zəng çaldı. Leytenant dəstəyi götürdü:

-Milis növbətçisi Sadıqov eşidir.

Aparatdan qəhərli bir kişi səsi eşidildi:

-Müstəntiq Faiq Qasımov öldürülmüşdür.»

**«Gecəyarısı qəsd»**

«Sahil kəndi yaxınlığında baş verən hadisədən milis şöbəsində çox gec xəbər tutdular. Hamı elə bilirdi ki, Səlim tələsik harasa gedib, çox çəkməz qayıdar. Ancaq Səlim qayıtmadı.»

**«Bir gecənin sirri»**

«Əlli min manat sovxoz pulu aparılmışdır»-gözlənilməz xəbər axşamüstü rayonda günün ən maraqlı mövzusuna çevrilmişdi. Pulun necə, hansı yolla aparılmasından hərə bir hekayət danışırdı.»

**«Gözlənilməz hadisə»**

«Kiçik bir meşədə gecəyarısı iki nəfərin müəmmalı şəkildə yoxa çıxması hamını həyəcanlandırmışdı. Onlardan biri kombayncı Əziz, digəri isə tibb bacısı Gülnarə idi.»

**«Sirli qətl»**

Povestlərdə ilkin hadisələrin təqdimində yazıçı təmkinlə hərəkət edir, tələsmir, yüz ölçür, bir biçir. Sonrakı hadisələrin inkişafı üçün tutarlı zəmin yaradır. Dedektiv povestlərdə təqdim edilən müxtəlif xarakterli, müxtəlif əqidəli adamlar-polkovnik Mehdi Abbasov, Zərifə xanım, Xanbaba, Mehdi kişi, Cavan, Aygün, milis rəisi Məlikov, prokuror Sadıq Bəşirə, müstəntiq Quliyev, məhkəmə-tibb eksperti Nadir Nəsirov, rayon prokuroru Vəlizadə, gənc müstəntiq Aydın Vahidov, şagird Akif, traktorçu Mahmud, anbardar Nuruş və s yaddaqalan psixoloji obraz ,səviyyəsinə qədər yüksəlmişdir.

Yazıçının müvəffəqiyyətlərindən biri də psixoloji vəziyyətlərin bədiiləşdirilməsidir. Buna povestlərdən çoxlu nümunələr gətirmək olar. Faiqin zəhərlənmə prosesində keçirdiyi sarsıntılar. Nuruşun ölüm səhnəsi, müstəntiq Babayevin Aygünü kabinetinə çağırtdıranda Aygünün həmin otaqda keçirdiyi həyəcan və daxili monoloqu belə nümunələrdəndir.

«...Vay! Bura gəlin! ...Tez olun...

Birdən Qarayev onları səslədi. Dəhşətli bir mənzərənin şahidi olmuş kimi əlləri ilə başını tutub o tərəf-bu tərəfə var-gəl edirdi□ Bu. doğrudan da çox dəhşətli mənzərə idi. Nuruş uçmuş qəbrin içində arxası üstündə uzanmışdı. Sinəsinin üstündə iri bir qəbirdaşı vardı, əlləri ilə daşdan möhkəm-möhkəm yapışmışdı,• gözləri hədəqəsindən çıxıb bərələ qalmışdı. Qəbrin içində xeyli qızıl pul, daş-qaş, mirvari, qızıl bilərziklər vardı. Baxana elə görünürdü ki, o, bütün bu ləl-cəvahiratın üstündə uzanıb. Ən dəhşətlisi də o idi ki, daşla onun sinəsi arasında belinin tirindən əzilmiş nəhəng bir gürzə hələ də fışıldaya-fışıldaya quyruğunu hirslə Nuruşun təhərsiz, şişib tanınmaz olmuş üz-gözünə çırpırdı.

Məsələ aydın idi: Nuruş var-dövlətini bu qədim daş qəbrin içində gizlədirmiş... Sözsüz ki, Sədəf arvadın evindən götürdüyü qızıl üzüklər, sırğa, qızıl saat, qolbaq da burada idi.

-Yəqin bu nəhəng daşı qaldıranda qaranlıqda ilanı görməyib, quyruğunu tapdalayıb, ilan da sancıb onu,-bunu Qarayev dedi.

**«Amansız qətl»**

Əlisəfa Azayevi bir yazıçı kimi səciyyələndirən amillərdən biri də əsərin final hissəsinin müvəffəqiyyətlə başa vurulmasıdır. O. sonluqda hər bir hadisəyə, obraza diqqətlə yanaşır, oxucu üçün ziddiyyətli, mübahisəli vəziyyətlər yaratmır.

Yazıçı povestlərdə oxucu ilə öz fikirlərini çox səmimi, yüksək intellektual səviyyədə bölüşür, onu özünə ən yaxın hesab edir.

«Azərin məhəbbəti Aygünün küskün qəlbinə həyat eşqi qaytarmışdı. Ailə qurmuşdular. Aygün Faiqin ölümündən 10 il keçməsinə baxmayaraq, tez-tez onun qəbri üstə gedir, çiçəklər qoyurdu.»

**«Gecəyarısı sui-qəsd»**

«Oxucum, o vaxtdan neçə illər keçib□ Yəqin ki, Maya ilə İkramın taleyi səni də maraqlandırır. Elə isə məlumun olsun ki, uzun illərin həsrətindən sonra onlar həyat qurmuşlar. Hətta Mayanın təkidilə İkram universitetə qəbul olunub təhsilin davam etdirir. Tez-tez onlar totuq bir oğlan uşağının əlindən tutub dənizə tərəf gedən görürdülər. Sanki onlar öz keçmişləri barədə dənizə pıçıldaşırdılar. Bu anlar kədər çökmüş bir cüt göz onları həmişə izləyir. O gözlərin sahibi indi öz keçmiş hərəkətləri üçün əzab çəkir. Vaxtında var-dövlətə, daş-qaşa aldanıb məhəbbətinə dönük çıxdığı üçün Sevda özünü bağışlaya bilmir. Heç vaxt da bağışlaya bilməyəcək. Bəs Ülkər və Laçın? Gəlin onlar barədə geniş danışmayaq. Belə yaşayış, belə münasibət heç birinizə qismət olmasın. Sizə büllur tək təmiz, saf, ülvi məhəbbət arzulayıram. Məhəbbət gözəl nemətdir. Məhəbbətinizi qoruyun. Məhəbbət olan yerdə həyat gözəlləşir, cənnətə dönür. Bu cənnətdə yaşamaq, yaratmaq da şirin, əvəzsiz olur.»

**«Gözlənilməz hadisə»**

Əlisəfanın povestləri birnəfəsə maraqla oxunur, əsərdəki hadisələrin süjet xəttində səliqə ilə və ardıcıl yerləşdirilməsi oxucunu yormur, əsəri oxunaqlı edir və yaddaşa ağırlıq gətirmir.

Yazıçını 65 illik yubileyi münasibəti ilə təbrik edir, yeni yaradıcılıq uğurları arzulayıram.

**Hörmətlə:**
**Əjdər Hüseynov.**

# MARAQLI SƏRGİ

Məktəbimizin kollektivi neçə müddət idi ki, bu tədbirə hazırlaşırdı. Özü də böyük həvəs və ürəklə. 28 May Respublika və 15 iyun Milli Qurtuluş Gününə həsr edilmiş sərgi buraya gələnlərin hamının-qonaqların da, valideynlərin də, uşaqların da marağına səbəb oldu.

Müəllimlərdən Ləman Əhmədova və Zeynəb Zəkiyevanın, eləcə də şagirdlərin əl işlərindən ibarət sərgi bir neçə gün nümayiş etdirildi. Azərbaycanın rəngli muncuqlardan düzəldilmiş xəritəsi, böyük öndər Heydər Əliyevin portreti, adi kağız parçalarından, balıqqulağından, müxtəlif toxumlardan, şüşədən, quru otlardan, taxta hissələrindən düzəldilmiş olduqca maraqlı lövhələr-Qız Qalası, tovuz quşu, qaz yuvası, işğal edilmiş rayonlarımızın mənzərəsi, evciklər, rəngbərəng güllər və s. Hamısı da bir-birindən maraqlı, gözəl, xoşagələn.

Sərgidə şagirdlərdən Nazənin Həsənova, Kanan Məmmədov, Ayşən Pənahova, Taleh Səfərbəyov, Zeyvə Ömərova, Gülnar Nuriyeva, Emil Kərimov, Sənan Məmmədov, Məryəm Həsənova, Şükufə Hüseynova, Roya Hüseynova, Zenfira İslamova, Nurlan Manafov və Ayxan Dadaşov özlərinin əl işləri ilə həm də özlərinin yaradıcılıq qabiliyyətlərini, istedad və bacarıqlarını nümayiş etdirdilər.

Şagirdlərin böyük marağını nəzərə alaraq gələcəkdə də belə sərgilərin təşkil edilməsi nəzərdə tutulmuşdur.

**Tərlan BAĞIROVA,**
**N. Əsədov adına 4 saylı tam orta məktəbin direktoru.**

# HEYDƏR BABAMA



Məmmədzadə Aytac Xoşbəxt qızı Siyəzən şəhər Ş. İsmayılov adına 3 saylı tam orta məktəbin V sinif şagirdidir. Dərslərini gözəl oxumaqla yanaşı, bədii ədəbiyyata da meyllidir. 15 iyun Milli Qurtuluş Günü ərəfəsində onun redaksiyamıza ünvanladığı məktubda da elə ilk cümlələrdən bunu aydın gördük, hiss etdik.

Sən bizim babamız,
Sən bizim dünənimiz,
Şərəfli tariximiz,
Çiçəklənən vətənimiz.

Sən həmişə bizimləsən,
Sabahımızda varsan.
Sən sönməz günəş olub
Yolumuza işıq saçarsan

**A. Məmmədzadə.**

# İTMİŞDİR

Baxşıyev Hökmulla Vahab oğlunun adına kənd təsərrüfatı məhsulları istehsalı məqsədilə verilmiş torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (İN-0066, kod 30506038) itdiyi üçün etibarsız sayılır.

Redaktor
İlyas İLYASOV

Təsisçilər:
Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
Qeydiyyat № 314
Redaksiyanın ünvanı:
Siyəzən şəhəri, Şəhriyar küçəsi, 1a

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 1820
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AİİB
33080019445500250155
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83